**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

***Əlyazması hüququnda***

**LEYLA ELXAN qızı ƏLİYEVA**

# XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA ORDUSUNUN İRƏVAN XANLIĞINA YÜRÜŞLƏRİ

5503.02 – Vətən tarixi

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2018**

***Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycanın yeni tarixi” şöbəsində yerinə yetirilmişdir.***

**Elmi rəhbər:**
*t.ü.e.d., professor* *Şirxan Dadaş oğlu Səlimov*
**Elmi məsləhətçi:**
*t.ü.f.d., dosent* *Hacı Nuru oğlu Həsənov*

**Rəsmi opponentlər:**
*Tarix üzrə elmlər doktoru, professor* *Camal Mehdi oğlu Mustafayev*
*Tarix üzrə fəlsəfə doktoru, dosent* *Güntəkin Cəmil qızı Nəcəfli*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Azərbaycan tarixi” kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – “Vətən tarixi”, 5502.01 – “Ümumi tarix”, 5507.01 – “Beynəlxalq münasibətlər tarixi” və 5509.01– “Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları” ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının “___”________ 2018-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat “ __ ”________ 2018-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi:
Tarix üzrə fəlsəfə doktoru, dosent: **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** 1997-ci ilin yanvarın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimləri ilə görüşü zamanı Ümummilli liderimiz Heydər Əliyev tarixçi alimlər qarşısında Azərbaycanın XIX-XX əsrlər tarixinin tədqiqini bir vəzifə kimi qoymuşdur[1]. Ulu Öndərin tarixçi alimlər qarşısında qoyduğu bu mühüm vəzifəyə uyğun olaraq keçən müddətdə Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən araşdırılması sahəsindəki iş bir qədər də sürətlənmişdir. Müasir Azərbaycan milli tarixşünaslığında tədqiqinə böyük ehtiyac olan problemlərdən biri müvəqqəti olaraq itirilmiş tarixi torpaqların tarixinin öyrənilməsi məsələsidir. Bu problemlər içərisində qədim Azərbaycan şəhəri İrəvana çar Rusiyası qoşunlarının işğalçı yürüşləri, 1827-ci ildə işğaldan sonra burada aparılan müstəmləkə siyasəti nəticəsində şəhərin və onun yerləşdiyi regionun etnik mənzərəsinin dəyişdirilməsi, 1918-ci ildə bu şəhərin ermənilərə güzəştə gedilməsi, onun adının dəyişdirilməsi və bütöv azərbaycanlı əhalinin İrəvandan və bütün Ermənistan SSR ərazilərindən deportasiya olunması məsələləri xüsusi yer tutur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan Respublikası ərazilərinin işğalı ilə bağlı etdiyi çıxışlarında: "İrəvan Azərbaycan şəhəridir, Zəngəzur Azərbaycan torpağıdır, Göyçə Azərbaycan torpağıdır və biz azərbaycanlılar o torpaqlara mütləq qayıdacağıq" fikrini dəfələrlə ən yüksək tribunallardan səsləndirmiş və bunun Azərbaycan xalqının təbii haqqı olduğunu söyləmişdir[2]. Qədim Azərbaycan ərazisi olan İrəvan bölgəsinin XIX əsrin ilk otuzilliyindəki tarixinin tədqiqinə həsr olunmuş dissertasiya bu istiqamətdə görülmüş işlərdən biridir.

Sovet dövründə mövcud ideologiya ilə bağlı olaraq tarix elmində bəzi məsələlər təhrif olunmuş, obyektiv araşdırılmamış, bəzilərinin isə üzərindən sükutla keçilmişdir. Buna görə də son dövrlərdə Azərbaycan tarixinin bilərəkdən təhrif olunmuş, qaranlıq qalmış səhifələrinin araşdırılması müasir Azərbaycan tarixşünaslığının ən vacib istiqamətlərindən birinə çevrilmişdir. Vətənimizin XIX-XX əsrlər tarixinin ən çox təhriflərə məruz qalmış sahələrindən biri də Azərbaycanın tarixi ərazilərinin, itirilmiş torpaqlarımızın obyektiv tədqiqi məsələsidir.

XVIII əsrin sonlarından Cənubi Qafqazda yaranmış siyasi vəziyyətdən, ayrı-ayrı feodal hakimliklər arasında gedən siyasi mübarizədən istifadə edərək özünün çoxdan planlaşdırdığı işğalçı niyyətlərini gerçəkləşdirməyə çalışan Rusiyanın bu istiqamətdə fəallaşması tarixşünaslığımızda ciddi tədqiqata ehtiyacı olan problemlərdəndir. Belə ki, Azərbaycanın qərb bölgəsinin – tarixi İrəvan xanlığı ərazisinin, eləcə də buranın ən qədim, avtoxton əhalisi olan Azərbaycan türkləri-

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 8-ci cild. Bakı: Azərnəşr, 1998, s359-381.
[2] Əliyev İlham. İnkişaf məqsədimizdir. Cild 38. Bakı: Azərnəşr, 2017, s. 315.

nin tarixi sovet tarixşünaslığında birtərəfli qaydada araşdırılmışdır. Buna görə də həmin məsələlərin yenidən araşdırılmasına ciddi ehtiyac vardır və bu baxımdan təqdim olunan dissertasiya xüsusi aktuallıq təşkil edir.

Georgiyevsk müqaviləsi ilə Cənubi Qafqazda hüquqi cəhətdən mövcudluğunu bir növ təsbit etməyə çalışan Rusiya eyni zamanda erməni amilindən də yararlanmağa can atırdı. Tarixin ibrətamiz dərslərindən nəticə çıxarmaq baxımından bütün bu məsələlərin araşdırılmasına ciddi ehtiyac vardır ki, təqdim olunan dissertasiyada çoxsaylı mənbə və ədəbiyyatın verdiyi məlumatlar əsasında buna cəhd edilmişdir.

Yalnız Azərbaycan müstəqillik qazandıqdan sonra aparılmış tədqiqatlarda ermənilərin həmin bölgəyə olan ərazi iddialarının əsassızlığı, onun heç bir elmi əsasa söykənməyən, kökündən yanlış, yalan müddəalardan ibarət olmaqla bizim tarixi keçmişimizə olan qərəzli münasibətin nəticəsi olduğu sübut edilmişdir. Son dövrlərdə aparılmış tədqiqatlara baxmayaraq, bu istiqamətdə görülmüş işləri bitmiş hesab etmək olmaz. Xüsusi elmi-siyasi əhəmiyyət daşıyan bu problemlə bağlı yeni tədqiqatlara ehtiyac vardır. Bu baxımdan təqdim olunan "XIX əsrin əvvəllərində Rusiya ordusunun İrəvan xanlığına yürüşləri" mövzusunda dissertasiya işi bu istiqamətdə daha bir addımdır.

Bütün bu deyilənlərə əsasən qeyd etmək lazımdır ki, həm elmi, həm də siyasi əhəmiyyət daşıyan bir problemin – XIX əsrin əvvəllərində rusların tarixi Azərbaycan torpağı olan İrəvan bölgəsinə yürüşləri, qala müdafiəçilərinin bu yürüşlərə qarşı uzunmüddətli müqaviməti məsələlərinin müasir dövr Azərbaycan tarixşünaslığında müəyyən qədər araşdırılmasına baxmayaraq, bu problemin elmi-siyasi əhəmiyyəti nəzərə alınaraq ayrıca tədqiqat obyekti kimi seçilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya xronoloji baxımdan XIX əsrin əvvəllərini, daha dəqiq desək 1804-cü ildən – çar Rusiyasının Qərbi Azərbaycanın işğalı məqsədilə İrəvana olan ilk yürüşündən 1827-ci ildə İrəvan xanlığının işğal olunmasına qədərki dövrü əhatə edir. Tədqiqat işində bu bölgənin işğal ərəfəsindəki durumunun işıqlandırılması zərurətindən bəzən müəyyən edilmiş bu xronoloji çərçivədən kənara çıxılmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Yuxarıda qeyd olunmuşdu ki, rus qoşunlarının İrəvan xanlığı ərazisinə olan yürüşləri, eləcə də yerli əhalinin bu işğal cəhdlərinə qarşı mübarizəsi problemi müxtəlif tədqiqatçılar tərəfindən araşdırılmasına baxmayaraq ayrıca tədqiqat obyekti kimi ilk dəfə məhz bizim tərəfimizdən seçilmişdir. Dissertasiya üzərində işləyərkən bu problemlə bağlı azacıq da olsa bilgilər verən qaynaq və tarixi ədəbiyyatdan yararlanmağa çalışmışıq.

Azərbaycanın çar Rusiyası tərəfindən işğalına həsr olunmuş ilk əsərlər hələ XIX əsrdə, bu işğalın gedişi zamanı və sonrakı illərdə meydana gəlmişdir. Bilavasitə işğal prosesinə həsr olunmuş əsərlərdə eyni zamanda İrəvan xanlığının da XIX əsrin ilk otuzilliyinə dair tarixindən, bölgənin çarizm tərəfindən işğalından

bəhs olunur. Həmin dövr müəlliflərindən S.B. Bronevski, P. Zubov[1] və başqaları qeyd etmək lazımdır. Bütövlükdə Qafqazın Rusiya tərəfindən işğalı dövrünün müxtəlif problemlərinə həsr olunmuş mənbə xarakterli bu əsərlərdə İrəvan bölgəsi əhalisinin çarizmin işğalçılıq siyasətinə qarşı mübarizəsi barədə məlumat verilir.

XIX əsrin ikinci yarısında işıq üzü görmüş nəşrlərdən İ.Şopen, N.F. Dubrovin, V.V.Potto, K.Şulqin, P.Q.Butkov, A.P.Şerbatov[2] və başqalarının əsərlərində Qafqazın Rusiya tərəfindən işğalı məsələlərindən bəhs olunur. İ.Şopenin əsərində İrəvan bölgəsinin Rusiya tərəfindən işğalı dövrü və ondan sonra həyatının bir çox sahələri öz əksini tapıb. Əsərin ciddi çatışmazlıqlarına baxmayaraq qeyd etmək lazımdır ki, bu tədqiqatda İrəvan bölgəsi ilə bağlı çox zəngin faktiki material verilmişdir.

A.P.Şerbatovun İrəvana rusların sonuncu yürüşünün təşkilatçısı olmuş, Qafqazdakı rus ordularının baş komandanı knyaz Paskeviçin həyat və fəaliyyətinə həsr olunmuş əsəri də tədqiq olunan problemlə bağlı zəngin mənbə xarakterli materialı özündə saxlamaq baxımından dəyərlidir.

İrəvan Müəllimlər Seminariyasının müəllimi olmuş K.Şulqinin məqaləsi, onun özünün də qeyd etdiyi kimi, şagirdlərinin vasitəsilə ermənilərin yaşlı adamlarının verdiyi şifahi məlumatları əsasında yazılmışdır. Məqalədə XIX əsr rus tarixşünaslığına xas olan çar Rusiyasının Qafqazda apardığı əməliyyatların buradakı yerli xalqların guya ki, İran və Türkiyənin əsrlər boyu bir-birini əvəz etməklə davam edən ağalığından, zülmündən azad etmək məqsədi daşıması xətti daim özünü göstərir. Burada rus ordusunun "əzəməti", "məğlubedilməzliyi" müəllif tərəfindən xüsusi vurğulanmaqla, İrəvanın alınmasında ermənilərin "xüsusi xidmətləri" də qeyd olunur.

Oktyabr çevrilişinə qədərki tarixşünaslıqda bu problemə yer ayırmış müəlliflərdən P.İ.Kovalevski, A.L.Qizetti, S.Esadze[3] və başqalarını da göstərmək

---

[1] Броневский С.Б. Новейшие географические и исторические известия о Кавказе. ч. I, Москва: 1823; Зубов П. Подвиги русских воинов в странах Кавказских с 1800 по 1834 год. Том 2, часть третья. Санкт-Петербург: 1836

[2] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ: 1852; Дубровин Н. История войны и владычества русских на Кавказе. в 6-ти тт. т. 1, книга II, СПб, 1871; т.III, Санкт-Петербург: 1886; т.V, СПб, 1888; т.VI, СПб., 1888; Потто В.В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, III том, СПб, 1886; Потто В.В. Первые добровольцы Карабаха в эпоху водворения русского владычества. Тбилиси, 1902; Шульгин К. Взятие Эривани. СМОМПК, т.IV. Тифлис, 1884; А.П.Щербатов. Генерал-фельдмаршал княз Паскевич, его жизнь и деятельность. Т. II, СПб, 1890; Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. в 3-х т. ч.III, СПб. 1869.

[3] Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кав-

olar. Bu əsərlərdə də problemə yanaşmada əvvəlki müəlliflərdən fərqli heç nə ortaya qoyulmurdu, onların əsərlərində də Rusiyanın Qafqazı işğal etməsini onun İran və Türkiyə ilə geosiyasi maraqları fonunda verilir, bu zaman yerli xalqların düçar olduqları əzab-əziyyət isə demək olar ki, arxa plana keçirilirdi. Bununla belə həmin əsərlərdə bizim tədqiq etdiyimiz problemin ayrı-ayrı tərəflərinə dair kifayət qədər məlumatlar verilmişdir ki, onlardan zəngin faktoloji material əldə edilərək tədqiqata daxil olunmuşdur. A.L.Qizettinin həmin vaxt üçün mövcud arxiv sənədlərinin verdiyi məlumatlar əsasında rusların bütövlükdə Qafqazın işğalı zamanı ayrı-ayrılıqda hər bir döyüşdə verdikləri itkilər barədəki statistik məlumatların İrəvan xanlığına aid olanlarından tədqiqat zamanı istifadə olunmuşdur.

Sovet dövrü tarixşünaslığında bu problemlə bağlı yazılmış əsərlərdə çox zaman qeyri-obyektiv yanaşma davam etdirilirdi. Həmin vaxt işıq üzü görən əsərlərdə Qafqazın, o, cümlədən də onun ayrı-ayrı bölgələrinin çar Rusiyası tərəfindən işğalı könüllü birləşmə kimi təqdim olunurdu. Bu cür yanaşma tədqiq olunan problemlə bağlı özünü daha qabarıq büruzə verirdi. Baxmayaraq ki, bəhs olunan dövrdə İrəvan xanlığının ərazisində yaşayan əhalinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi, həmin əsərlərdə xanlığının tarixi erməni tarixinin bir hissəsi kimi, Qərbi Azərbaycan torpaqları Şərqi Ermənistan adıyla təqdim olunur.

Sovet dövrü tarixşünaslığında tədqiq olunan problemə həsr olunmuş əsərlərə tərəfimizdən tənqidi münasibət bildirilməklə İrəvan xanlığının işğalı məsələsindən bəhs edən əsərlərdən ilk olaraq H.İbrahimbəylinin XIX əsrin ilk sülsündə Azərbaycan-Rusiya münasibətlərindən bəhs edən əsərini[1] qeyd etmək olar. Onun əsəri mövcud sovet ideologiyasında bu bölgəyə və bəhs olunan problemə yanaşma tərzindən kənara çıxa bilməsə də bu əsərdə İrəvan xanlığına dair verilmiş faktiki materialdan yararlanmışıq.

Bu dövr tarixşünaslığına məxsus, xüsusilə də sovet dövrünün son illərində işıq üzü görmüş əsərlərin bəzilərində isə problemə daha obyektiv yanaşma müşahidə olunur. Həmin əsərlərdə artıq Rusiyanın Qafqaz maraqları, Azərbaycan xanlıqlarının iri dövlətlərin bu bölgədə toqquşan maraqları arasında manevr et-

---

казско-горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг. Тифлис, изд-тво военно-исторического отдела при штабе Кавказского военного округа, 1901; Гизетти А.Л. Сборник сведений о кавалерах и боевых знаках отличий Кавказских войн (составлено архивным документам А.Л.Гизетти). Тифлис, изд-тво военно-исторического отдела при щтабе Кавказского военного округа, 1901; Ковалевский П.И. Кавказ. История завоевания Кавказа. Т.II, СПб, 1915; Эсадзе С. Историческая записка об управлении Кавказом. Т.1, Тифлис,1907.

[1] Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории). Москва, 1969.

məsi, onlardan bəzilərinin isə bu güclərdən hansısa birinə meyl etmək məcburiyyətində qalmaları kimi məsələlər tədqiq olunurdu.

Problemin obyektiv şəkildə tədqiqi müasir dövr Vətən tarixşünaslığına aiddir. Məhz bu zaman əzəli Azərbaycan ərazisi olan İrəvan bölgəsinin obyektiv tarixi araşdırılır. Bu dövrdə meydana gələn tədqiqatlarda tutarlı dəlillər və faktlarla bu bölgənin əzəli Azərbaycan torpağı olması və ermənilərin buraya çar Rusiyası tərəfindən mərhələlərlə köçürülərək məskunlaşdırıldığı arxiv sənədləri və digər ilkin mənbələrin məlumatları əsasında sübut olunur.

Vətən tarixşünaslığından bəhs edərkən Mehman Süleymanovun bilavasitə bu problemə həsr olunmuş "İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən", o cümlədən iki cildlik "Gülüstan müqaviləsi"[1] əsərlərini xüsusi olaraq qeyd etmək lazımdır. Zəngin mənbə materialları əsasında yazılmış bu monoqrafiyadan bizi maraqlandıran problemlə bağlı çox dəyərli məlumatlar əxz edilərək tədqiqata cəlb olunmuşdur. Bununla yanaşı qeyd etmək lazımdır ki, əsərin adındakı "birləşdirilmə" termini ilə razılaşmaq qeyri-mümkündür.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda akademik Y.M.Mahmudovun təşəbbüsü və rəhbərliyi altında Azərbaycanın itirilmiş torpaqlarının tarixinin tədqiqi istiqamətində xeyli iş görülmüş və bu tədqiqatlar indi də davam etməkdədir. Y.M.Mahmudovun rəhbərliyi altında Tarix İnstitutunda hazırlanmış "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi"[2] əsərini isə bu istiqamətdə görülmüş çoxillik gərgin əməyin bəhrəsi kimi qiymətləndirmək olar. Bu kitabda Şimali Azərbaycanda ən sonda işğal olunmuş, çarizmə uzun müddət ciddi-cəhdlə müqavimət göstərmiş İrəvan xanlığının tarixi keçmişi, əhalisi, ərazisi, sosial-iqtisadi həyatı, xanlığın xarici siyasəti, onun ərazisinin Rusiya tərəfindən işğal olunması, İran və Türkiyədən ermənilərin bu bölgəyə köçürülməsi kimi məsələlər əhatəli şəkildə tədqiq olunur.

Vətən tarixşünaslığında bu problemə həsr olunmuş əsərlərdən E.T.Qarayevin 2010-cu ildə nəşr etdirdiyi "İrəvan xanlığı. (1747-1828)"[3] monoqrafiyasını da qeyd etmək lazımdır. Adından göründüyü kimi bu əsər xanlığın yaranmasından onun Rusiya tərəfindən işğalına qədərki tarixinin bütün sahələrini əhatə edir. Müəllif çoxsaylı mənbə və ədəbiyyatı tədqiqata cəlb edərək İrəvan xanlığının bəhs olunan dövr tarixini dərindən araşdırmışdır ki, biz də dissertasiya işində bu əsərdən yeri gəldikcə yararlanmışıq.

Müasir dövr tarixşünaslığımızda Şimali Azərbaycanın çar Rusiyası tərəfin-

---

[1] Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən, Bakı, 1997; yenə onun. Gülüstan müqaviləsi. I c. Bakı, 2014.

[2] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi redaktor akademik Y.M.Mahmudov. Bakı, 2010.

[3] Qarayev E. İrəvan xanlığı (1747-1828). Bakı, 2010; Qarayev E. T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında). Bakı: 2016.

dən işğalı, eləcə də XIX əsrin birinci yarısı tarixi məsələlərinin tədqiqinə həsr olunmuş əsərlərdə də bizim tədqiqat obyektimizə daxil olan problemə - rusların İrəvan xanlığına yürüşlərinə dair əldə etdiyimiz məlumatlar dissertasiyanı daha da zənginləşdirmişdir. Bunlardan F.Əliyev və M.Əliyevin "Naxçıvan xanlığı (1747-1828)", F.Əliyev və U.Həsənovun "İrəvan xanlığı"[1], T.Mustafazadənin "XVIII yüzillik-XIX yüzilliyin əvəllərində Osmanlı-Azərbaycan münasibətləri" və "Azərbaycan xanlıqlarının qısa tarixi"[2], G.Nəcəflinin "Azərbaycan xanlıqlarının Osmanlı dövlətilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı)"[3], V.Umudlunun "Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)"[4] monoqrafiyalarını qeyd etmək olar.

Dissertasiyanın yazılması zamanı üçcildlik və yeddicildlik "Azərbaycan tarixi"nin müvafiq dövr cildlərindən istifadə edilməsi də dissertasiyanın yazılmasında bizə yardımçı olmuşdur. Müstəqillik dövründə işıq üzü görmüş yeddi cildlik "Azərbaycan tarixi"nin dördüncü cildində[5] araşdırılan problemə yanaşma, məsələnin qoyuluşu tədqiq etdiyimiz mövzunun siyasi, həm də elmi aktuallığını əsaslandırarkən konseptual istiqamət kimi götürülmüşdür.

Tədqiqatımızın gedişində Vətən tarixşünaslığında XIX əsrin əvvəlləri tarixinin müxtəlif problemlərinin araşdırılmasına həsr olunmuş əsərlərdən də faydalanmışıq.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycanın itirilmiş torpaqlarının tədqiqi daim öz aktuallığını saxlayır, belə bölgələrimizin tarixinə mümkün qədər çox müraciət olunmalıdır.

**Tədqiqatın mənbə bazası.** Tədqiqatın gedişində problemin öyrənilmə dərəcəsində göstərilmiş çoxsaylı ədəbiyyatla bərabər mövzuya dair zəngin mənbə materiallarından da istifadə olunmuşdur. Məhz istifadə olunmuş müxtəlif mənbə materiallarından, o cümlədən ayrı-ayrı arxiv sənədlərindən əldə etdiyimiz məlumatların müqayisəli təhlili araşdırılan problemi dolğun və ətraflı şəkildə tədqiq etmək imkanı vermişdir.

---

[1] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, 2007. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996.

[2] Mustafazadə T.T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011; yenə onun XVIII yuzillik-XIX yuzilliyin əvvllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, 2002.

[3] Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövlətilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı). Bakı, 2002.

[4] Umudlu V.U. Şimali Azərbaycanın car Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, 2004; yenə onun. Rusiya işğalı ərəfəsində İrəvan xanlığının siyasi vəziyyətinə dair. Az.EA aspirantlarının elmi konfransın materialları, Bakı, 1993; yenə onun. Rusiya işğalı ərəfəsində İrəvan xanlığının siyasi vəziyyətinə dair. Az.EA aspirantlarının elmi konfransın materialları, Bakı, 1993.

[5] Azərbaycan tarixi. 7 cilddə, IV c., Bakı, 2007.

İlk olaraq problemə dair yerli mənbələrdən A.A.Bakıxanovun "Gülüstani İrəm"[1], Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi"[2] və Mirzə Adıgözəl bəyin "Qarabağnamələr"ini[3] qeyd etmək lazımdır. Həmin əsərlərin XIX əsrin əvvəllərinə aid hissələrindən rusların Azərbaycan xanlıqları üzərinə olan işğalçı yürüşlərinə dair dəyərli məlumatlar əldə edilərək tədqiqata daxil edilmişdir.

Araşdırılan problemlə bağlı mühüm mənbələrdən biri kimi redaktoru və əsas tərtibçisi A.P.Berje olan "Qafqaz Arxeoqrafiya Komissiyası tərəfindən toplanılmış Aktları"[4] göstərmək olar. Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarından Qafqazdakı rus ordularının baş komandanları knyaz P.D.Sisianov və qraf İ.V.Qudoviçin İrəvan qalasının təslim edilməsi tələbilə İrəvan xanları – əvvəlcə Məhəmməd xan, sonralar isə Hüseyn xanla yazışmaları, onların müxtəlif illərə dair hesabatları, müxtəlif hərbi hissə komandirlərinin raportlarından rusların qala üzərinə olan yürüşləri barədə ətraflı təsəvvür yaradan zəngin faktiki material əldə edilərək tədqiqata daxil edilmişdir .

"Aktlar"dan əldə olunmuş sənədlərdən Qafqazdakı rus ordularının baş komandanı qraf Qudoviçin imperiyanın xarici işlər nazirinə yazdığı 1808-ci il 11 dekabr tarixli hesabatında rus qoşunlarının İrəvan üzərinə olan ikinci yürüşü barədə müfəssəl məlumat verilir. "Aktlar"dakı ayrı-ayrı hərbi hissə komandirlərinin raportlarından ermənilərin rusların xeyrinə casusluq fəaliyyəti ilə bağlı faktlar da tədqiqata cəlb olunmuşdur.

Tədqiqatın mənbəşünaslıq bazasından bəhs edərkən həmin hadisələrin iştirakçılarının qələmə aldıqları xatirələrini xüsusilə qeyd etmək lazımdır. Bu baxımdan ikinci Rusiya-Qacar müharibəsinin, eləcə də İrəvan xanlığının üzərinə olan yürüşün iştirakçısı olmuş general-leytenant Krasovskinin "Gündəliyi" daha qiymətli mənbədir. Gündəlikdə demək olar ki, rusların qala üzərinə olan son yürüşü ən xırda detallarına kimi təsvir olunur. Məhz buna görə də Krasovskinin "Gündəliyi" İrəvan xanlığının Rusiya tərəfindən işğalı məsələləri əks olunmuş qiymətli mənbədir.

Araşdırılan mövzu ilə bağlı nəşr olunmuş arxiv sənədlərindən də ilkin mənbə kimi tədqiqat zamanı geniş şəkildə istifadə olunmuşdur. "Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsi"[5] adlı sənədlər toplusunda bu problemlə bağlı Moskva, Sankt-Peterburq və Gürcüstan arxivlərində saxlanılan sənədlər toplanmışdır ki,

---

[1] Бакиханов А. Гюлистан-и Ирам. Баку, 1991.

[2] Mirzə Camal Cavanşir Qarabaği. "Qarabağ tarixi". tərcümə, müqəddimə və qeydlər F.Babayevindir-Qarabağnamələr, Bakı, 1989.

[3] Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr, I kitab, Bakı, 1989.

[4] Акты, собранные Кавказской Археографической Комиссией (АКАК). Т. II, Тифлис, 1868; т. III, Тифлис, 1869; т. IV, Тифлис, 1870; т. VI, ч. I, Тифлис, 1874.

[5] Присоединение восточной Армении к России, сборник документов, т.1, (1801-1813). Изд-во Академии наук Армянской ССР. Ереван 1972.

burada İrəvan xanlığının çar Rusiyası tərəfindən işğalı ərəfəsindəki siyasi durumu, əhalisi, məşğuliyyəti, eləcə də rusların şəhərə olan hücümlarıyla bağlı dəyərli faktlar əks olunmuşdur.

Bu topluda verilmiş sənədlərdən müəllifinin rusların İrəvana olan birinci yürüşünün iştirakçılarından olmuş Qafqaz qrenadyor alayının komandiri general-mayor Tuçkov olduğu güman olunan "P.D.Sisianovun başçılığı altında rus qoşunlarının İrəvana yürüşü barədə 30 noyabr 1804-cü il tarixli anonim məktub"u xüsusi olaraq qeyd etmək lazımdır. Belə ki, burada rusların İrəvan qalasına olan ikinci yürüşü – ayrı-ayrı xırda toqquşmalardan tutmuş, geniş hərbi əməliyyatlara qədər günbəgün baş vermiş hadisələr, eləcə də İrəvan qalasının mühasirəsinin götürülməsi məsələsinin müzakirə olunması məqsədilə 1804-cü il avqustun 31-də toplanmış məşhur hərbi şura barədə də təfərrüatı ilə məlumat verilmişdir.

XIX əsrdə çarizmin Azərbaycandakı müstəmləkəçilik siyasətinə dair həmin dövrün qəzet və məcmuələrində getmiş materiallardan da istifadə olunduğunu onları da ilkin mənbə kimi qiymətini xüsusilə qeyd etmək lazımdır. Bu topludakı sənədlər çarizmin Şimalı Azərbaycana münasibətdə yeritdiyi milli-müstəmləkəçilik siyasətinin mahiyyətini açmağa imkan verir.

Problemin mənbə bazasından bəhs edərkən Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA)[1] və Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində (AMEA TİEA)[2] saxlanılan sənədləri də qeyd etmək lazımdır. Tarix İnstitutunun Elmi Arxivindən istifadə olunmuş işlərdə ayrı-ayrı vaxtlarda keçmiş SSRİ-nin müxtəlif arxivlərindən toplanmış çox unikal sənədlərdən İrəvan xanlığının daxili siyasi vəziyyəti, işğala qarşı irəvanlıların müqavimətinə dair dəyərli məlumatlar əxz edilmişdir.

Dissertasiyanın yazılması zamanı Gürcüstan Mərkəzi Tarix arxivinin 2 (Kanselyariya qlavnoupravlyayuşeqo Zakavkazskim krayem), 1087 (Voyenno-istoriçeskiy otdel ştaba Kavkazskoqo voyennoqo okruqa)[3] saylı fondlarından rusların İrəvana yürüşü ərəfəsində mövcud siyasi vəziyyəti əks etdirən, həmçinin İrəvana və Naxçıvana rus hücümları barədə məlumat verən sənədlərdəki materiallardan da tədqiqat zamanı yaralanmışıq. Arxiv sənədlərində rusların İrəvan xanlığına yürüşü ərəfəsində bu bölgədəki ümumi durumu əks etdirən məlumatlar, eləcə də 1827-ci ildə İrəvan xanlığının işğalı ilə nəticələnən sonuncu yürüş barədə faktlar götürülərək tədqiqata daxil edilmişdir. Bu sənədlərdən, P.D.Sisianovun İrəvan xanlığının tutulmasının vacibliyi barədə I Aleksandra raportu, onun imperiyanın digər yüksək rütbəli məmurları ilə müxtəlif məsələlərlə bağlı olan yazışmaları, 20-ci piyada diviziyasının komandiri general-leytenant Kra-

---

[1] ARDTA, fond 24, siyahı 1, iş 53 və 68; fond 73, siyahı 1, iş 5.

[2] AMEA TİEA, işlər 1; 102; 1719 (3); 7747 (2); 7747 (3); 7747 (5); 8460 və s.

[3] Центральный Исторический архив Грузии (ЦИАГ). ф. 2, оп. 1, дд. 28; 42; 58; 79; 96; 183; ф. 1087, оп. 2, дд. 250; 252; 253.

sovskinin baş komandan Paskeviçə raportları tədqiq etdiyimiz problemlə bağlı dəyərli mənbə materiallarıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi arxiv sənədləri, tarixi ədəbiyyat və digər mənbə məlumatları əsasında çar Rusiyasının Qərbi Azərbaycana olan yürüşləri, şəhər əhalisi və İrəvan qalasının digər müdafiəçilərinin rusların işğal cəhdlərinə qarşı inadlı müqaviməti və mübarizəsi məsələlərini ətraflı və əhatəli şəkildə araşdırmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuş və onların həllinə cəhd göstərilmişdir:

-Qərbi Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ərəfəsində onun siyasi durumunun ümumi mənzərəsini vermək;

-İrəvan xanlığının Rusiya tərəfindən işğalının gedişi zamanı çarizmin bu bölgə ilə bağlı planlarını aydınlaşdırmaq;

-Çarizmin Qərbi Azərbaycanla bağlı siyasətində ermənilərin yerini və rolunu müəyyən etmək;

-Qafqaz uğrunda mübarizə aparan Rusiya və Qacarlar İranı arasında gedən müharibədə Qərbi Azərbaycanın yeri məsələsini araşdırmaq;

-Çarizmin bu bölgəyə münasibətdə olan işğalçılıq siyasətinin mahiyyətini açıqlamaq;

-İrəvan xanlığının əhalisinin çarizmin işğal cəhdlərinə qarşı mübarizəsini tədqiq etmək;

-İrəvanlı Məhəmməd xanın diplomatik qabiliyyəti, çətin anlarda güclü rəqiblər arasında manevr etməklə onun İrəvan qalasınnın müdafiəsindəki müstəsna rolunu göstərmək.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın tədqiqi zamanı qarşıya qoyulan məqsədə nail olmaq üçün tarixi müqayisəli təhlil metodu əsas götürülmüşdür.

Çar Rusiyasının Qərbi Azərbaycanla bağlı işğalçılıq siyasətinin müəyyən edilməsi zamanı əldə edilən arxiv sənədləri, mövcud elmi ədəbiyyat araşdırılaraq müqayisəli təhlil edilmiş və elmi-məntiqi nəticələr çıxarılmışdır. Bu araşdırmalar nəticəsində əldə edilən məntiqi nəticələr, onların analizi və sintezi çar Rusiyasının Qərbi Azərbaycana münasibətdəkı işğalçılıq siyasəti və İrəvan xanlığı əhalisinin inadlı müqaviməti və mübarizəsi məsələlərinə ətraflı işıq salmaq imkanı vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın başlıca elmi yeniliyi Azərbaycanımızın son dövrlərə qədər tarixi təhrif edilmiş bir bölgəsinin – İrəvan xanlığına rusların uğursuz yürüşləri probleminin ilk dəfə kompleks şəkildə ayrıca tədqiqat obyekti kimi seçilməsidir. Əldə edilən arxiv sənədlərinin verdiyi məlumatlar, eləcə də tarixi ədəbiyyat və müxtəlif mənbə materialları bizə bu problemi ətraflı tədqiq etməyə imkan vermişdir. Bu zəngin materialların təhlili bizə aşağıda sa-

dalananları da dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir:

-Rusların İrəvan xanlığına yürüşləri problemi indiyə qədər dissertasiya tədqiqatının obyekti kimi seçilməmişdir;

-Arxiv sənədləri, elmi tədqiqat işləri və digər müxtəlif səpkili işlərdən əldə olunmuş materialların müqayisəli təhlili nəticəsində əhəmiyyətli elmi nəticələr çıxarılmışdır;

-İrəvan xanlığı ilə bağlı çar Rusiyasının müstəmləkəçi siyasətinin mahiyyəti barədə yeni faktlar aşkarlanıb;

-İrəvan qalasının müdafiəsinin təşkilində təcrübəli diplomat və uzaqgörən dövlət xadimi olan Məhəmməd xanın xüsusi rolu araşdırılıb;

-Müqayisələrə və təhlillərə əsaslanaraq ermənilərin pozuculuq fəaliyyətinin qalanın təslim olunmasındakı roluna dair əlavə faktlar gətirilib;

-Rusların qala üzərinə olan hücumlarının qala ətrafı ərazilərə vurduğu ağır zərərin nəticələri təhlil olunub;

-1804-cü il avqustun 31 çağırılmış hərbi şuranın qərarının təhlili nəticəsində rus hərbi komandanlığında olan ixtilaflar faktlarla aşkara çıxarılıb.

**Tədqiqatın nəzəri və əməli əhəmiyyəti.** Dissertasiyanın əməli əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, tədqiqat işində gətirilən faktiki material və ümumiləşdirmələrdən, bu materiallardan əldə olunmuş elmi nəticələrdən Azərbaycan tarixinə dair ümumiləşdirici əsərlərin, Azərbaycan tarixi üzrə dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

Tədqiqat zamanı əldə edilən elmi nəticələrdən eyni zamanda ölkəmizin ali məktəblərinin tarix fakültələrində müxtəlif mühazirə və xüsusi kursların oxunması məqsədilə də istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi " şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda keçirilən, eləcə də beynəlxalq elmi-praktik konfranslarındakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya giriş, 3 fəsil, 9 yarımfəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi göstərilir, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, öyrənilmə səviyyəsi araşdırılır, tədqiqatın mənbə bazası təhlil edilir, əldə olunan elmi yeniliklər verilir, elmi-nəzəri və praktik əhəmiyyəti qeyd edilir.

Dissertasiyanın **"Rus qoşunlarının İrəvan xanlığına birinci yürüşü"** ad-

lanan I fəsli dörd yarımfəsildən ibarətdir. **"İrəvan xanlığı rus-Qacar müharibələri ərəfəsində"** başlıqlı birinci yarımfəsildə XIX əsrin əvvəllərində Şərqi Gürcüstanın Rusiya tərəfindən ilhaqı ilə tarixən İrəvan xanlığının ərazisi olmuş Pəmbəyin də çar Rusiyasının tabeçiliyinə keçməsinin İrəvan xanının ciddi narahatlığına səbəb olmasından və onun rusların Pəmbəkdən qovulması məqsədilə hərəkətə başlamasından bəhs olunur. İrəvan xanının bu istiqamətdəki fəaliyyəti Rusiyanın Qafqazdakı ordu komandanlığının İrəvan xanlığına münasibətdə təcavüzkar siyasətinin başlanması üçün bəhanə olur.

Belə bir vəziyyətdə general Lazarev Məhəmməd xana hədələyici məktub göndərərək onu "Rusiyanın mənafeyi ilə səsləşməyən" əməllərindən əl çəkməyə çağırır. Ancaq bu tələblərin Məhəmməd xana təsir etməyəcəyini əvvəlcədən bilən Lazarev 1801-ci il iyun ayının 30-da yeger alayının bir batalyonu, muşketyor alayının bir batalyonu, 100 kazak və 500 nəfər gürcü silahlısı və 18 ədəd topla Pəmbək vilayətinə istiqamət götürür[1].

Çar I Aleksandr (1801-1825) 1802-ci il aprelin 25-də K.F.Knorrinqə beş bənddən ibarət xüsusi təlimat göndərmişdi. Bu təlimatın dörd bəndi İrəvana aid idi. Təlimatda çar rus komandanlığına nəyin bahasına olursa-olsun şah qoşunlarının İrəvanda möhkəmlənməsinə yol verməmək, Məhəmməd xanı rus təbəəliyinə keçməsinə inandırmaq üçün yollar axtarmaq, İrəvan qalasında rus qoşununu yerləşdirməyi tapşırmışdı[2]. Qətiyyətli tədbirlərin həyata keçirilməsinə nail olmaq üçün K.F.Knorrinq milliyyətcə gürcü olan Pavel Dmitriyeviç Sisianovla əvəz edildi.

İrəvan xanının ermənilərin dini işlərinə qarışması erməni kilsəsinin patriarxlığına Davidi gətirməsi, Eçmiədzin monastırının bütün əmlakını ələ keçirməsi xanlığın ərazisinin işğalı üçün bəhanə axtaran Rusiya üçün göydəndüşmə olur. Ermənilərdən Rusiyanın işğalçılıq siyasətinin həyata keçirilməsindəki rolu, onlardan daim bir vasitə kimi istifadə olunması barədə hələ çar Pavelin verdiyi 1798-ci il 26 fevral tarixli fərmanında göstərilirdi ki, "...Qafqazda yaşayan ermənilər Rusiyanın bu bölgə ilə bağlı planlarının həyata keçirilməsində daim yardımçı ünsür olmuşlar"[3].

Sisianovla irəvanlı Məhəmməd xan arasında getmiş yazışmalarda baş komandan aşağıdakı tələblər irəli sürürdü ki, xan yalnız həmin şərtlərin yerinə yetiriləcəyi təqdirdə xanlıq Rusiya təbəəliyinə və himayəsi altına alına bilərdi: 1) Daniil Eçmiədzindəki erməni kilsəsinin başçısı təyin olunmalı və patriarx David ruslara verilməli idi; 2) İrəvan qalasına rus qoşunları buraxılmalı; 3) Xan Rusiya imperatorunu öz hökmdarı kimi qəbul etməli və ona sədaqət andı içməli; 4) Xan ildə Rusiya xəzinəsinə 80 min rubl xərac ödəməli idi. Bu məbləğ iki dəfəyə - bi-

---

[1] Mehman Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən, s.33.
[2] Qarayev E. İrəvan xanlığı (1747-1828), s.96-97.
[3] TİEA, iş 1, s. 111-112.

rinci hissəsi Novruz bayramının sonrakı günü, ikinci yarısı isə iyul ayından sonra ödənməli idi.

Bunun müqabilində isə xanın: 1) Əvvəlki hüquq və səlahiyyətləri ilə (ölüm hökmü hüququ istisna olmaqla) xanlıqda qalması; 2) Xanın şəxsi təhlükəsizliyinə zəmanət əlaməti olaraq imperator tərəfindən onun xan səlahiyyətlərinin təsdiqi barədə fərmanın verilməsi; 3) Xanın ailəsinin İrandan geri qaytarılması üçün rusların hər cür səy göstərcəyi barədə Sisianov tərəfindən öhdəlik götürülürdü.

Sisianov irəvanlı Məhəmməd xana yazdığı 28 fevral 1803-cü il tarixli məktubunda da ruslar tərəfindən saxlanılmış irəvanlı tacirlərin xanın bununla bağlı etdiyi xahişə görə deyil, guya ki humanist Rusiya qanunlarına əsasən azad etdiyini, əvəzində xandan onun tərəfindən əvvəlki məktublarında irəli sürdüyü tələbləri yerinə yetirməklə Rusiyaya sədaqətli olduğunu sübut edə biləcəyini bildirirdi[1].

Sisianov tərəfindən Məhəmməd xana yazılmış məktubu aparan kapitan Çuyko və knyaz Orbelianiyə bu səfər zamanı imkan tapıb İrəvan qalasının zəif və möhkəm tərəflərini müəyyən etmək, Gürcüstandan İrəvana gedən yolun əlverişliliyi barədə gizli, məxfi məlumat toplamaq tapşırılmışdı[2].

Sisianov imperatora göndərdiyi raportunda bu barədə yazırdı: "Belə açıq itaətsizliyi cəzasız qoymaq imperator həzrətlərinin silah gücünə qazanılmış nüfuzunu zəiflədə bilər. Raportun sonunda Sisianov bu məsələnin həlli üçün imperatordan ona tam komplektləşdirilmiş 3 piyada alayın, 1 nizami süvari alayı ilə yanaşı cari xərclər üçün birdəfəlik 100 min gümüş rubl verilməsinin zəruriliyini bildirməklə, bunun ona hücum taktikasını seçməklə uğurla İrəvanın, ardınca Naxçıvanın və Şuşanın tutulmasına, bununla da bir kompaniya ilə Kür və Araz sərhəd olmaqla həmin əraziləri ələ keçirməyə imkan verə biləcəyini bildirirdi[3].

Ruslarla toqquşmanın qaçılmaz olduğunu anlayan Məhəmməd xan rusların İrəvana birinci yürüşü ərəfəsindəki fəaliyyətində, onun istər ruslarla, istərsə də qacarlarla münasibətlərində bu iki nəhəng qüvvə arasında necə ustalıqla manevrlər etməsi, xanın son dərəcə güclü diplomatik qabiliyyətindən xəbər verirdi. Fikrimizcə, məhz onun uzaqgörən dövlət xadimi kimi fəaliyyəti şəhəri rusların qala üzərinə olan dağıdıcı yürüşlərindən qoruya bilmişdi.

Rusların İrəvana olan yürüşlərindən bəhs edərkən ermənilərin bu işdəki rolunun üzərində, fikrimizcə, ayrıca durmağa ehtiyac var. Rusiyanın Qafqaza müdaxilə etməsi erməni tarixində də yeni səhifə açırdı. Ermənilər Eçmiədzin ətrafında birləşərək, Rusiyanın yardımı ilə Türkiyə və İran "Ermənistanı"nın xilasını düşünməyə başlayırlar[4].

---

[1] GMTA, f. 2, s. 1, iş 58, v. 399-400.

[2] Предписание кн. Цицианова квартирмейстирской части кап. Чуйко, от 9-го февраля 1803 года, АКАК, т. II, Тифлис, 1868, док. 1215, стб. 609-610.

[3] GMTA, f. 2, s. 1, iş 28, v. 66 arxa-69.

[4] Mirzə Bala Məmmədzadə. Ermənilər və İran. Bakı, 1993, s. 27.

Sisianov ermənilөri qorxudurdu ki, rus qoşunlarının hücumu başlananda Məhəmməd xan var-dövlətini götürüb qaçacaqdır. Siz isə rus silahının qurbanları olacaqsınız. Ona görə də Sisianov bütün erməniləri ayağa qalxmağa, Məhəmməd xanla mübarizə aparmağa çağırırdı.

Dissertasiyanın I fəslinin "**Rusların İrəvan xanlığına yürüş hazırlıqları**" adlanan ikinci yarımfəslində Sisianovun təkcə İrəvanı tutmaq deyil, həm də çar Rusiyasının Qara və Xəzər dənizləri arasındakı ərazilərdə hakimiyyətini bərqərar etmək niyyətindən və bu istiqamətdə hazırlıqlarından bəhs olunur. Bunun üçün Sisianovun sərəncamında Cənubi Qafqazda aşağıdakı qüvvələr var idi: Qafqaz qrenader, 9-cu, 15-ci və 17-ci yeger alayları, Tiflis, Kabardin, Saratov və Sevastopol muşketyor alayları (24 topla birlikdə), eləcə də müxtəlif mühafizə məntəqələrində yerləşdirilmiş Narva draqun və Don kazak alayları.

Sisianov Meqreliya, İmeretiya və Quriyanın Rusiya imperiyasına ilhaqından sonra hesab edirdi ki, Gürcüstanın vassal asılılığında olmuş əraziləri də "geri qaytarmaq" lazımdır. Bununla belə o, hesab edirdi ki, "Rusiyanın köməyi ilə 400 il əvvəl gürcü çarı I Aleksandr tərəfindən parçalanmış İberiyanın vahid şəkildə birləşdirilməsini rus çarı I Aleksandrın zamanında başa çatdırmaq" lazımdır.

Hələ Georgiyevskdə olarkən Sisianov İrəvan xanını silahla təhdid edərək onun tərəfindən hakimiyyətdən uzaqlaşdırılmış Daniili yerinə qaytarmağı tələb etmişdi. İlk baxışda bəhs olunan qarışıq dövrdə Qafqazda daha vacib işlərlə müqayisədə ikinci dərəcəli təsir bağışlayan bu məsələdə Sisianovu belə israrlı olmağa vadar edən onun qənaətinə görə "vaxtilə Gürcüstana xərac vermiş bir xanın" onun iradəsinə tabe olmaq istəməməsi idi. İrəvan xanının cəzalandırılmasının zəruri olduğunu hesab edən Sisianov İrəvana yürüşə qəti qərar verir[1].

Məhəmməd xan bu hər iki tərəfdən başlaya biləcək təcavüzün qarşısını almaq üçün qalanın müdafiəsinin gücləndirilməsinə diqqəti daha da artırdı. Rus tarixi ədəbiyyatında mövcud olan məlumatlara görə, Məhəmməd xan 2 min ermənini vilayətdən köçürmüşdü ki, onlar ruslarla əməkdaşlıq etməsinlər. Azərbaycanın hərb tarixçisi Mehman Süleymanov qeyd edir ki, İran tarixçisi Nasir Həcminin yazdığına görə isə Məhəmməd xan iranpərəst müsəlmanları vilayətdən köçürmüşdü və həmin müsəlmanları geri qaytarmaq üçün Abbas Mirzənin əmri ilə sərkərdə Mehdiqulu xan xüsusi bir əməliyyat da keçirtmişdi[2].

Rusiya tərəfinin tələblərinin ağır olmasına baxmayaraq Məhəmməd xan Sisianovla danışıqların davam etdirilməsini lazım bilirdi. Onun ardınca naxçıvanlı Kəlbəli xan da məktubla Sisianova müraciət etdi, onu öz tələblərinə yenidən baxmağa, xüsusən İrəvan qalasında rus qoşunlarının yeridilməsi tələbindən imti-

---

[1] Утверждение русского владычества на Кавказе. Т. I, с. 129.

[2] Mehman Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən, səh. 47.

na etməyə çağırdı[1]. Sisianov cavab məktubunda öz tələbləri üstündə dayandığını bildirirdi.

Şahın birinci vəziri Mirzə Şəfi isə öz nümayəndəsini Sisianovun yanına göndərərək ondan Rusiya qoşunları ilə birlikdə Gürcüstanı tərk etməsini tələb etmişdir[2].

Sisianov İrəvan qalasının müqavimətsiz təslim olacağına şübhə etmirdi və ona görə də mühasirənin çox da uzanmayacağına ümid etdiyindən bu səfər üçün lazımi qaydada hazırlıq da görməyi vacib bilməmişdi. 1804-cü ilin may ayının əvvəlində Sisianov İrəvan üzərinə hərəkətə başladı.

Açıq, rəsmi şəkildə müharibə elan olunmasa da qacar orduları Güney Azərbaycanda toplanaraq İrəvan xanına kömək üçün hazır vəziyyətə gətirilmişdi. Eyni zamanda gürcü şahzadəsi Aleksandr da Kartli-Kaxetiyanın knyazlarına məktub yazaraq onları şəxsi hüquqları uğrunda mübarizəyə, həqiqi çarlarını müdafiə etməyə və İran dövlətinin himayəsinə sığınmağa çağırırdı[3].

Sisianov eyni zamanda Naxçıvan xanına yazırdı ki, əgər rusların tərəfində olsa xan taxtında oturacaq, yox əgər iranlıların tərəfində olsa o, onsuz da İrəvanı alacaq və o zaman onları Cavad xanın aqibəti gözləyəcək[4].

Sisianov Fətəli şahın vəziri Mirzə Şəfidən aldığı məktubda iki dövlət arasında qədimdən mövcud olan dostluq əlaqələrinin "daim hər iki dövlət tərəfindən" gözlənildiyi, Rusiya ərazisində həmişə İran tacirləri üçün əlverişli ticarət şəraitinin yaradılması kimi qarşılıqlı dostluq münasibətlərinin mövcud olduğunu qeyd edən Mirzə Şəfi indiki vaxtda rusların hərbi qüvvə ilə Gürcüstana gəlişindən sonra bu razılaşmanın pozulduğu göstərilir, əgər təcili tədbirlər görülməsə - yəni ruslar Qafqazı (Gürcüstanı) tərk etməsələr əvvəlcə çoxminlik qüvvə ilə Abbas Mirzənin, ardınca da Baba şahın (Fətəli şahın-L.Ə.) Gürcüstana yürüşə hazırlaşması və yürüşün baş verməsi ilə aralarındakı sülhün pozula biləcəyi xəbərdarlığı olunurdu[5].

Bu fəslin **"İrəvan qalasının mühasirəsi"** adlanan üçüncü yarımfəslində qala istiqamətində rusların hərəkəti, onun mühasirəsi, döyüş taktikası və qala müdafiəçilərinin qəhrəmanlıq mücadiləsindən bəhs olunur. 1804-cü ilin mayında Fətəli şah başda olmaqla Qacarlar səltənəti rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını rəsmi şəkildə tələb etmişdi. Lakin tələb rədd olundu və 1804-cü ilin iyulun 10-da Rusiya ilə Qacarlar İranı arasında diplomatik əlaqələr kəsildi

---

[1] Mehman Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən, səh. 49.

[2] Письмо кн. Цицианова к кн. Чарторийскому, от 29 мая 1804 года, АКАК, т. II, док. 1667, стб. 809.

[3] Утверждение русского владычества на Кавказе. Т. I, 1901, с. 134.

[4] Дубровин Н. Закавказъе от 1803-1806 года. СПб, 1866, с. 303.

[5] Там же, с. 304-305.

və Rusiya-Qacar müharibəsi başlandı[1].

İrəvana yürüş ərəfəsində Sisianovun komandanlığı altındakı Cənubi Qafqazda olan rus qüvvələri aşağıdakı qaydada yerləşmişdi: Cənubi Qafqazdakı 7 piyada alayından Qafqaz qrenader alayı İmeretiya sərhədində yerləşdirilmiş, 17-ci yeger və Sevastopol alayının 1 batalyonu Yelizavetpol dairəsini, Sevastopol alayının digər 2 batalyonu Tiflisi qoruyurdu; 9-cu yeger alayı Kartliniyanı, 15-ci yeger və Kabardin alayları – Kaxetiyanı qoruyurdular və onları həmim mövqelərindən tərpətmək mümkün deyildi. Tiflis alayının 2 batalyonu İrəvanın qarşısında – Pəmbək əyalətində; 3-cü batalyonu isə Borçalı distansiyasında mədənləri qoruyurdu.

Baş komandan qüvvələri toplayaraq iyunun 15-də Eçmiədzin monastırına doğru hərəkətə başlamışdır. Bu zaman ruslar qacarlarla qarşılaşmasalar da, onların məşəllərinin işıqlarının hərəkətindən qacarların rusların hərəkətini izlədiyi məlum olurdu[2].

Avropa taktikası ilə tanış olmayan qacarlar hesab edirdilər ki, onların ilk cəhdindən sonra rusların müqaviməti qırılacaq. 1804-cü il iyunun 20-də Eçmiədzin monastırının ətrafındakı döyüşdə ruslardan 4 nəfər zabit yaralanmış, 8 aşağı rütbəli öldürülmüş, 54-ü yaralanmış, 2-i əsir düşmüşdür[3].

“Russkiy invalid”də göstərilirdi ki, rusların nizami piyada karelәri onlar üçün hərəkət edən alınmaz divara çevrilmişdi[4].

Sisianov iyunun 26-dan 30-a kimi Kənəkir kəndindəki qalanın müdafiə vəziyyətinə gətirilməsi işlərilə məşğul olur. Bu zaman Eçmiədzin monastırından gəlmiş rahib Sisianova xəbər vermişdir ki, qacarlar onu tərk etmişlər. Sisianovun göndərdiyi 2 bölük tərəfindən monastır dərhal tutuldu.

Sisianov bu qələbədən sonra hərəkət istiqamətini İrəvana yönəltdi. 1804-cü il iyulun 2-də səhərə doğru irəliləyən rus hissələri İrəvanın ətrafında mövqe tutdular. İyulun 14-dən 15-nə keçən gecə qala divarlarının altında tərəflər arasında qanlı döyüş baş verdi.

Əgər Fətəli şah ordunu iki yerə bölməklə, ruslara bölünmüş qacar qüvvələrinə hücum etmək şəraiti yaratmaqla taktiki səhvə yol vermişdisə, Sisianov həmin hücum üçün azsaylı qüvvə ayırmaqla daha da böyük səhvə yol vermişdir.

İrəvan ətrafındakı ümumi mühasirə vəziyyətində elə bir dəyişikliyə səbəb olmadı. Qacarların yardımına bel bağlayan xan inadla müdafiə olunur, qalanı təslim etməkdən imtina edir, mühasirə dağıdan qurğulara malik olmayan Sisianov isə zorla xanı buna məcbur edə bilmirdi. Vaxt keçdikcə isə vəziyyət rusların

---

[1] Azərbaycan tarixi, 7 cilddə, IV cild, s. 20.

[2] Утверждение русского владычества на Кавказе, т. I, с. 138.

[3] Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско-горских, персидских, турецких и в Закаспийском крае 1801-1885гг., с. 133.

[4] Русский инвалид, 1831, №6, с. 316.

əleyhinə dəyişməyə başlayır. Belə ki, iyul istilərini yağışlı, soyuq avqust əvəz edir. Rus ordusunda xəstəliklərin yayılması nəticəsində ölüm halları artmağa başlamışdır.

Sisianov İrəvan kürdlərinin başçısı Hüseyn ağaya məktubunda yazırdı ki, "...mən Fətəli şahı və oğlunu məğlub etmişəm və qalanın yaxınlığındayam. İnsan qanı tökmək istəmədiyimdən, hələ ki, qalanı almıram. İrəvan mənim olacaq. Sən də öz ətrafınla gəl mənə qoşul"[1].

Sisianov Məhəmməd xana bildirirdi ki, Rusiyada dini etiqad azadlığı var və əhalinin məscidlərin kilsələrə çevriləcəyi barədəki əndişələri əsassızdır. "Gəncənin alınmasından sonra da biz yerli əhalinin dininə hörmətlə yanaşdıq, yəqin bu barədə eşitmisiniz. Qeyd etməliyəm ki, 6 aylıq yazışmalarımıza baxmayaraq sizin əlahəzrət imperatora xidmət etmək barədəki sözləriniz heç bir əyani əsası olmayan şeydir. Bu istəyi əməldə sübut etmək lazımdır. Bu məktubuma qəti cavabı sabah günortadan gec olmayaraq verilməlidir"[2].

İlk fəslin **"Hərbi Şura və İrəvan qalasının mühasirəsinin götürülməsi"** adlanan dördüncü yarımfəslində Sisianovun hərbi şura çağırması, mühasirənin mövcud durumunun şura üzvlərinə izahı, mühasirənin davam etməsi və ya geri çəkilmək haqqında qərara gəlmək məsələsindən bəhs olunur.

1804-cü il avqustun 31-də çağırılmış Şurada baş komandan, infanteriya generalı knyaz Sisianov, Qafqaz qrenader alayının komandiri general-mayor Tuçkov, general-mayor Leontyev, Narva draqun alayının komandiri general-mayor Portnyagin, 9-cu yeger alayının komandiri polkovnik Maykov, Qafqaz qrenader alayının komandiri polkovnik Simonoviç, artilleriya mühəndisi, podpolkovnik baron Klot fon Yurgensburq iştirak edirdilər. Sisianov "artıq şura üzvlərinə mühasirənin davam etdirilməsini mümkünsüz edən bütün səbəblər bəlli olduğundan müəyyən edin ki, hücumu həyata keçərək, yoxsa şəhərdən geri çəkilək" deyərək Şura üzvlərinə müraciət etmişdir. Bununla o, özü kənara çəkilərək bu məsələni şura üzvlərinin müzakirəsinə buraxmışdır[3].

Göndərilən ərzağın ünvana çatmamış, müraciət olunan yerlərdən ərzağın göndərilməmiş, Eçmiədzin ətrafındakı biçilmiş taxıl isə İran atlıları tərəfindən yandırılmış və baş komandan sərəncamında süvari olmaması səbəbindən buna qarşı heç nə edilə bilinməmişdi. Baş komandan İrəvandan Pəmbəkdəki Abarana qədər məsafənin də altı günlük yol olduğunu qeyd edərək, geri çəkilmənin də çətinliklərini toplantı iştirakçılarının nəzərinə çatdırmışdır. O, eyni zamanda geri çəkilmənin hələ də ruslara tam bağlanmamış Gürcüstan əhalisində, eləcə də di-

---

[1] Письмо кн. Цицианова начальнику Эриванских курдов Хусейн аги, от 24 июля 1804 года, АКАК, т. II, док. 1236, стб.617.

[2] Письмо кн. Цицианова к Мамед хану, от 2 сентября 1804 года, АКАК, т. II, док. 1242, стб. 618-619.

[3] Дубровин Н. Закавказье от 1803-1806 г., с. 336.

gər xalqlarda ruslara qarşı mənfi münasibətinin yarana biləcəyi təhlükəsini qeyd etməklə şura üzvlərinə 2 yolu - qalaya hücumun, yaxud geri çəkilməni seçməyi təklif etmişdir[1].

Hərbi Şurada Portnyagin və Sisianov hücum etmək, çoxluq isə geri çəkilməyə tərəfdar oldular. Nəticədə səs çoxluğu ilə geri çəkilmək və bunu iki günlük hazırlıqdan sonra sentyabrın 2-də həyata keçirmək, bu müddətdə isə qala divarlarına ara-sıra atəş açmaqla hücum görüntüsü yaratmaq qərara alınır[2].

İrəvan yürüşünə görə Sisianova I dərəcəli Müqəddəs Vladimir ordeni və 8 min rubl dəyərində icarə yeri verilir[3]. Sisianovun fikrincə, qış vaxtı İrəvanı Gürcüstandan ayıran dağların qarla örtülməsi rus ordu hissələrinin hərəkətini çətinləşdirsə də, mühasirə zamanı onlar qarşılarında daha əvvəlki kimi qırx minlik düşmən qüvvəsi ilə qarşılaşmayacaqdır ki, bu da onların işini asanlaşdıracaq və qısa vaxtda İrəvanı almaq mümkün olacaqdır. Yox, əgər İrəvan qalasına hücumun keçirilməsi yaza qədər uzansa, Sisianovun fikrincə, onda Xəzər donanmasından da istifadə etmək lazım gələcək, bu zaman donanma Bakını tutmaqla Ənzəli və Rəşt üçün təhlükə törətməlidir ki, Fətəli şah bu təhlükə qarşısında əsas qüvvələrini Arazın o tayında saxlamaq məcburiyyətində qalsın. Sisianovun başçılığı altında İrəvan qalasının mühasirəsinin götürülməsindən sonra sentyabrın 3-dən 14-ə kimi Qarakilsə kəndi istiqamətində İrəvandan Pəmbəyə geri çəkilməli idi.

Beləliklə, yekun vuraraq qeyd etmək lazımdır ki, Qafqazın asanlıqla işğalına nail olacağına ümid edən, yerli xalqların mübarizə əzminə ötəri baxan Rusiyanın Qafqazdakı ordularının komandanlığı, ilk növbədə baş komandan P.D.Sisianov İrəvanda layiqli cavabını aldı.

Dissertasiyanın ikinci fəsli **“Rusların İrəvan xanlığı üzərinə ikinci və üçüncü yürüşləri”** adlanır. Bu fəslin **“İkinci yürüş ərəfəsində İrəvan xanlığı, Qacarlar səltənəti və Rusiyada gedən hərbi hazırlıqlar”** adlı birinci yarımfəslində bölgədəki böyük güclərin İrəvan uğrunda mübarizəsi tədqiq olunur. İrəvana olan birinci yürüşün uğursuzluqla başa çatmasına baxmayaraq ruslar İrəvanın işğalından əl çəkməmiş, yalnız onu daha əlverişli məqama kimi təxirə salmışdılar və bu yarımfəsildə də həmin hazırlıqlar işıqlandırılmışdır.

İrəvan xanlığını bir tərəfdən ruslar, digər tərəfdən isə Qacarlar İranı ona təzyiq edirdi. Ermənilərin xəyanətindən ehtiyat edən xan 4 minə qədər erməni ailəsini müvəqqəti olaraq Osmanlı ərazisində yerləşdirmək niyyətində idi. Lakin ruslar onları ələ keçirərək bir hissəsini Pəmbək, digər hissəsini isə Lori çölündə yerləşdirmiş və onların qalan hissəsi isə Tiflisə - indiki Avlabar və Qatatubani ərazilərində məskunlaşdırılmışdı[4].

---

[1] Присоединение Восточной Армении, с. 254-255.
[2] Утверждение русского владычества на Кавказе. Т. I, с. 155.
[3] Yenə orada, s. 157.
[4] П.И.Ковалевский. Завоеваниеь Кавказа, с. 67-68.

Rusların İrəvanın işğalı planlarından əl çəkmədiklərini gözəl anlayan Qacarlar İranı da ciddi hazırlıq işlərini görürdü. Rusiya tərəfi İrəvana növbəti yürüş öncəsi, birinci yürüş zamanı yaşadıqları çətinliklərlə üzləşməmək üçün tədbirlər görməyə başlamışdır. İlk olaraq İrəvana gedən yolda mühüm strateji əhəmiyyətli məntəqə olan Şörəyelin tutulması planlaşdırılmışdı.

Taxılla zəngin olan Şörəyel həm rusların ərzağa olan tələbatını ödəmək baxımından, həm də Qacarlar İranı və Osmanlı Türkiyəsi ilə müharibələr zamanı Rusiyanın İrəvan xanlığı və Ahalsıx paşalığı ilə sərhəddində bufer zona kimi ruslar üçün mühüm əhəmiyyət daşıyırdı. Şörəyelin Rusiyanın himayəsi altına keçməsi barədə öhdəlik 1805-ci il martın 30-da Budaq sultanın oğlu tərəfindən imzalanmışdı.

İngiltərə və Fransa da Rusiyanın bu bölgədə möhkəmlənməsini istəmir və hər vəchlə buna qarşı İranı müdafiə edirdilər. 1807-ci ilin əvvəllərindən Fransa ilə İran arasında bununla bağlı danışıqlar sürətləndi. Həmin ilin mayın 4-də Finkenşteyndə tərəflər arasında müqavilə imzalandı. Bu müqaviləyə görə, Cənubi Qafqazı tutmaq üçün Tehrana hərbi kömək göstərilməsi nəzərdə tutulmuşdu. Tezliklə Tehrana general Qardanın başçılıq etdiyi fransız diplomatik nümayəndə heyəti gəldi. Onun gəlişi ilə Finkenşteyn müqaviləsi təsdiq olundu. 1808-ci il yanvarın 21-də bağlanmış müqaviləyə görə İran fransız cəbbəxanasından 20 min tüfəng satın ala bilərdi[1].

Fransa tərəfindən Rusiya ilə müharibəyə təhrik olunan Qacarlar İranının hazırlıqlara başlaması Rusiyanın müvəqqəti olaraq təxirə saldığı planlarının yerinə yetirilməsi üçün hərəkətə keçməsinə bəhanə verdi. Məqsəd isə Cənubi Qafqazın işğalını başa çatdırmaq, İrəvan və Naxçıvan xanlıqlarını işğal etmək idi.

Haqqında danışdığımız bu fəslin **“Rus qoşunlarının İrəvan xanlığı üzərinə ikinci işğalçı yürüşü”** adlanan II yarımfəslində rus ordusunun İrəvana olan ikinci işğalçı yürüşündən, ordunun düzülüşündən, mühüm döyüşlərdən danışılır və bu yürüşün bir sıra statistik göstəriciləri əks olunur.

Qeyd edilməlidir ki, ruslar yürüş öncəsi İrəvan qalasının zəif yerlərini, ümumiyyətlə yerlərdəki vəziyyəti öyrənmək məqsədilə casusları da işə salmışlardı[2].

General Qudoviçin yaxınlaşdığını eşidən irəvanlı Hüseynqulu xan dörd minlik süvari ilə ona qarşı hərəkət etdi, lakin sentyabrın 29-da Əştərək kəndi yaxınlığında məğlub olaraq İrəvana geri çəkilməyə məcbur oldu.

Vaxtilə Sisianova ciddi müqavimət göstərmiş Eçmiədzin monastırı Qudoviç tərəfindən müqavimətsiz ələ keçirildi. Sentyabrın 30-da Eçmiədzini tutan rus qoşunları erməni ruhaniləri tərəfindən sevinclə qarşılandı[3].

---

[1] Azərbaycan tarixi, 7 cilddə, IV cild, s. 31.

[2] Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, 2004, s. 89.

[3] Всеподданнейшее донесение гр. Гудовича, от 29-го октября 1808 года, АКАК, т.

1808-ci il oktyabrın 7-də gecə 3-də İrəvan şəhərinin kənarını tutmaq əmrini alan polkovnik Simonoviç rus düşərgəsindən yola düşdü. O, səhərə yaxın azacıq itki ilə qalanın ətrafını – karvansarayı, məscidi, digər binaları və bağları ələ keçirdi. Bundan sonra Saratov batalyonu ilə əlaqənin təmin edilməsi məqsədilə Zəngi çayının üzərindən körpünün tikintisinə başladı. Eyni zamanda ordu hissələrinə un üyütmək üçün dəyirman da qurdu[1].

Qudoviç qala müdafiəçilərinə belə bir müraciət ünvanladı: "İrəvan qalasının əvvəlki uğursuz mühasirəsinə baxmayın. Onda vəziyyət, səbəblər başqa idi indi tamam fərqlidir. O zaman rus ordularına hərbi işdə o qədər də təcrübəsi olmayan gənc general Sisianov komandanlıq edirdi, indi isə güclü rus ordusuna rəhbərlik etməkdə otuz illik təcrübəsi olan mən..."[2].

Beləliklə, Qudoviç isə qalanın mühasirəsinə başladı. Simonoviç İrəvanı keçərək forştadı tutmalı, bununla da qalanı şimaldan mühasirəyə almalı idi. Borşov isə Zəngi çayını keçib qalanın cənub-qərbindəki Mahtəpə təpəsini tutmalı idi[3].

Buxvostova İrəvanın cənub-şərqində yerləşən Muhanat kurqanına və onun ətrafındakı bağlara hücum etməklə irəvanlıların diqqətini Borşov və Simonoviçin dəstələrindən yayındırmaq, sonra isə Simonoviçlə əsas qüvvələrin yerləşdiyi qüvvələr arasında rabitə yaratmaq əmr olunmuşdu.

Ruslar tərəfindən qalaya gedən suyun kəsilib onun ağzının Dəmirbulaq istiqamətinə yönləndirilməsinə baxmayaraq, qala müdafiəçiləri suyu rus yegerlərinin fasiləsiz atəşləri altında da olsa Zəngi çayından gecə vaxtı gizlicə götürə bilirdilər.

Əsas hücum noyabrın 17-də saat 5-ə təyin edildi. İrəvana olan hücumu təsvir edən məktubda yazılırdı ki, "...Əcəl küləyi hədsiz-hesabsız insanların gözündə bu işıqlı dünyanı qaranlıq etdi"[4].

Noyabrın 16-dan 17-ə keçən gecə bütün gecəni rus hissələri hücuma hazırlıqla məşğul oldular. Səhər saat 5-də xəbərdaredici 3 atəş açıldıqdan sonra qalaya hücum başladı. Özlərini itirməyən qala müdafiəçiləri rusları şiddətli atəşlə qarşıladılar. Rusların gizlicə qalaya yaxınlaşmaq planı qala müdafiəçilərinin rusların hərəkətindən duyuq düşərək ətrafı işıqlandırmaları səbəbindən pozuldu. Nəticədə qala müdafiəçilərinin güclü atəşləri, xüsusilə də mərmi atəşləri rusların sıralarında böyük itkilərə səbəb oldu.

Qudoviç hücumu dayandıraraq qalan qüvvələri geriyə, əvvəlki mövqelərinə çəkdi. Qudoviç bu uğursuzluğu qala xəndəklərində mərmi atan topların yerləş-

---

III, Тифлис, 1869, док. 453, стр. 241-246.

[1] QAKA, c.III c., sənəd 467. Всеподданнейшее донесение гр.Гудовича от 11-го декабря 1808 г. (Министру иностранных дел), с. 259.

[2] Утверждение русского владычества на Кавказе, т. I, с. 295

[3]Yenə orada, s. 296.

[4] Mirzə Adıgözəl Bəy. Qarabağnamə, s. 75.

məsi, onlarda partlayıcı mina və bombaların olması ilə izah edirdi. O, noyabrın 30-da İrəvan qalasının mühasirəsini götürməyə vadar oldu.

Beləliklə, çar Rusiyasının İrəvan xanlığına ikinci işğalçı yürüşü də tam məğlubiyyətlə başa çatdı. Qudoviçin sələfi Sisianov kimi bu məğlubiyyəti ərzağın çatışmaması, soyuqların erkən düşməsi, qalanın müdafiəyə ciddi hazırlanması və sair bu kimi müxtəlif bəhanələrlə ört-basdır etməyə çalışsa da həqiqət ondan ibarət idi ki, növbəti dəfə İrəvan qalasının mərd müdafiəçiləri fövqəladə igidlik nümayiş etdirərək işğalçıları geri çəkilməyə vadar etdilər. Rus qoşunları İrəvanda növbəti dərslərini aldılar.

**"1811-ci il yürüşü"** adlanan III yarımfəslində rus ordusunun İrəvan xanlığına III yürüşü və bu zaman baş verən hadisələrdən bəhs edilir.

1811-ci ildə Qafqazdakı rus ordularının komandanı general Tormasovun geri çağırılmasından sonra Qafqaz diyarının idarəçiliyində edilən dəyişikliyə görə Cənubi Qafqaz general-leytenant markiz F.O. Pauluççiyə, Astraxan quberniyası ilə birlikdə Qafqaz xəttinə kimi ərazilər general-leytenant N.F. Rtişşevə tabe edildi[1]. Məhz Pauluççinin zamanında rusların İrəvan üzərinə növbəti, sayca üçüncü hücumu baş verdi.

Pauluççinin imperiyanın hərbi nazirinə yazdığı məktubunda da "...çoxsaylı rus əsgərinin həyatını itirdiyi, avropalı mütəxəssislərin məsləhətləri əsasında möhkəmləndirilmiş İrəvan qalasının" xüsusi əhəmiyyəti qeyd olunurdu[2].

Pauluççi yazırdı: "...imkan daxilində daha çox dağıntı torətməklə əhali arasında dəhşətli qorxu yaratmağa cəhd edin ki, bu irəvanlıların yaddaşında uzun müddət qalsın...mümkün olduqca çox ailə əsir götürmək və səyyar ərzaq anbarı yaratmaq üçün lazım olan heç olmasa 4 min mal-qara ələ keçirməyə çalışın. Bundan başqa, irəvanlılardan pul təzminatı almağı yaddan çıxartmayın"[3]. Lisaneviçin başçılığı altındakı hissələr 10 gün ərzində İrəvan xanlığının ərazisindəki dinc kəndləri talan etməklə məşğul oldu.

Əvvəlki yürüş zamanı olduğu kimi bu dəfə də irəvanlıların güclü müqaviməti ilə qarşılaşan rus qoşunları qışın yaxınlaşması, qarın yağacağı təqdirdə yollarda hərəkətin çətinləşəcəyi bəhanəsi ilə yürüşü yarımçıq qoyub geri qayıtmağa məcbur olur.

Dissertasiyanın "**İrəvan xanlığının çar Rusiyası tərəfindən işğal olunması**" adlı üçüncü fəsli iki yarımfəsildən ibarətdir. Onun **"Rus qoşunlarının İrəvan xanlığı üzərinə növbəti yürüş hazırlıqları"** adlı ilk yarımfəslində son yürüş üçün olan hazırlıqlardan bəhs edilir. 1826-cı ilin yazında ruslar Şirəkə hü-

---

[1] Акты собранные Кавказской Археографической Комиссией , т. V, стб. 1.

[2] Отношение маркиза Паулуччи к военному министру, от 30 декабря 1811 года, №101, АКАК, т. 5, д. 173, стб. 123.

[3] Предписание маркиза Паулуччи ген-л. Лисаневичу, от 27 октября 1811 года, №30, АКАК, т. 5, д. 170, стб. 120.

cum etməyi qərara aldılar[1].

Çar I Nikolayın İrəvana yürüşə çıxmaq barədə verdiyi buyruqda İrəvan yürüşündə iştirak edəcək qoşunların sayı da dəqiq göstərilmişdi: "Tezliklə sizdən belə cavab gözləyirəm, sərdar yoxdur və İrəvan vilayəti tutulub. Siz və 15 min rus müvəffəqiyyət üçün kifayətdir"[2].

Rusların Şamxor və Gəncə döyüşlərindəki qələbələri İrəvan xanlığına da öz təsirini göstərmişdi. Ruh düşgünlüyü keçirən xan qoşunları geri çəkilməyə başladı. Demək olar ki, Pəmbək və Şörəyel yenidən boşaldıldı.

1826-cı ilin sonunda baş qərargah Yermolov və Paskeviçin rəyi əsasında növbəti hərbi kampaniya haqda iki layihə işləyib hazırladı. Paskeviçin bəyəndiyi ikinci layihəyə əsasən rəqibə gözlənilməyən yerdən zərbə endirilir, İrəvan və Naxçıvan vilayətləri gözlənilmədən və tamamilə başqa vilayətlərdən ayrı salınırdı. Əsas zərbə isə Təbrizə endirilirdi[3].Yermolov isə mövcud qüvvələrlə İrəvan xanlığını tutmaqla kifayətlənməyi, qalalarda ermənilərdən istifadə etməyi, ümumiyyətlə bütün erməniləri silahlandırmağı təklif edirdi. Sonra isə Meşkin vilayətindən keçməklə Ərdəbil, Xalxal və başqa yerlər ələ keçirilməli, bununla da Lənkəran xanlığı itaətə gətirilməli idi[4]. I Nikolay Yermolov tərəfindən bəyənilən layihəni təsdiq etdi.

1827-ci il mayın 26-da Qasımcan kəndi yaxınlığında baş vermiş döyüşdə ruslardan 2 zabit və 102 sıravi öldürüldü, 14 sıravi yaralandı[5].

Paskeviç Krasovskiyə təlimatında yazırdı: "...İmkan daxilində mühasirəni davam etdirmək, rus sərhədlərini və ruslara sadiq tatarları düşmən qüvvələrin hücumundan qorumaq; istilərin səngiməsi və mühasirə artilleriyasının gəlişi ilə İrəvan qalasının mühasirəsinə yenidən başlamaq"[6].

1827-ci il iyunun 5-də Cavanbulaq kəndi yaxınlığındakı döyüşdə – qüvvələr nisbətinin həddindən artıq qeyri-bərabər olduğu bu döyüşdə Qacar qoşununun məğlub olması iyulun 7-də təslim olacaq Abbasabadın da taleyini həll etmiş oldu[7].

Ruslar Abbasabadı İrəvana yolun açarı hesab edirdilər. Ruslar kimi Abbas Mirzə də Abbasabadın strateji mövqeyinin əhəmiyyətini yaxşı başa düşürdü. O, 16 minlik qüvvə toplayaraq rusları qabaqlamaq üçün Abbasabada doğru hərəkə-

---

[1] Письмо Хусейн хана к ген. Ермолову. АКАК, т. VI, ч. I, док. 1370, стб. 891-892.

[2] Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, III том, СПб, 1886, с. 359.

[3] Дубровин Н. История войны и владычества русских на Кавказе, т.VI, с. 687.

[4] Дубровин Н. История войны и владычества русских на Кавказе, т.VI, с. 684.

[5] Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско-горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг., с.145.

[6] GMTA, f. 1087, s. 2, iş 250, v. 26.

[7] Azərbaycan tarixi, 7 cilddə, IV cild, s. 49.

tə başlayır. Abbasabad qalasının komendantı qalanı ruslara təslim etməkdən imtina etdikdə qala top atəşinə tutuldu. Müqavimətin yersiz olduğunu anlayan Qacar ordu komandirlərinin bəziləri ruslara təslim oldular.

Həmin il avqustun 17-də Uşağan kəndi yaxınlığında (Eçmiədzində) yeni döyüş baş verdi. General-leytenant Krasovski Paskeviçə raportunda bu döyüşü qacarlarla bu zamana kimi olmuş ən qanlı döyüş adlandırmaqla rusların üzərinə pələng kimi şığıyan Qacar süvariləri və piyadalarının igidliyinə heyranlığını da gizlədə bilməmişdi. Bu döyüş hər iki tərəf üçün strateji əhəmiyyət daşıyan Eçmiədzin monastırı uğrunda gedirdi.

Sentyabrın 14-də Sərdarabadın mühasirəsi başladı. Lakin Həsən xan qalaya girməyə müvəffəq oldu. Nerses şəhərin erməni əhalisinə təslim olmaq üçün müraciət etdi.

Əsərin son yarımfəsli **"İrəvan qalasının süqutu. Rusiya qoşunları tərəfindən İrəvan xanlığının işğal olunması"** adlanır və burada İrəvan qalasının təsviri, işğalı, qalanın talan edilməsi, məscidin kilsəyə çevrilməsindən bəhs olunur.

Abbasabad və Sərdarabadda ələ keçirilən ərzaq və hərbi sursat rusları yarım il təmin etməyə imkan verirdi. Hətta Paskeviç bunsuz İrəvanın mühasirəsinin necə olacağını təsəvvür edə bilmədiyini bildirirdi[1].

İrəvanın mühasirəsinin təşkilinə dair hazırlanmış məruzədə qeyd olunurdu ki, İrəvan qalasının ətrafına yaxınlaşan ruslar qala ətrafındakı məscid istisna olmaqla digər tikililərin qala müdafiəçiləri tərəfindən yararsız hala salındığı, bağların qırıldığının şahidi olurlar. Bununla qala müdafiəçiləri rusları təbii istehkamlardan məhrum etmək istəmişdilər[2].

Sentyabrın 24-də İrəvanın mühasirəsi başladı. Həmin vaxt üçün İrəvan qalasının təsviri də maraq doğurur: "İrəvan qalasında Sərdar sarayı, iki məscid, bir neçə inzibati bina yerləşir. Qala üç tərəfdən xəndək və iki kifayət qədər hündür hasarla əhatə olunur. Qala divarlarının bir tərəfi sıldırımlı olmaqla Zəngi çayına bitişikdir. Çayın sağ tərəfində İrakli dağı adlanan kurqan yüksəlir ki, bu adın ona verilməsi gürcü çarı İraklinin vaxtilə İrəvana olmuş yürüşü ilə bağlıdır. Qala divarları xırda daşlardan saman qarışdılmış gillə hörülmüşdür. Qalaya yerin altı ilə Zəngi və Qırxbulaq çaylarından su çəkilmişdir. Qalada Rusiya tərəfindən işğal olunana qədər 800 ev var idi ki, onların çoxu qalanın işğalı zamanı dağıdılmışdır"[3].

Bu zaman İrəvan xanlığının da əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğu göstərilmişdir. Paskeviç yazırdı ki, "İrəvan vilayətində 10 min müsəlman və ancaq 3 min erməni ailəsi var idi"[4].

---

1 А.П.Щербатов. Генерал-фельдмаршал князь Паскевич, его жизнь и деятельность. Т. II, с.1.

2 GMTA, f. 1087, s. 2, iş 253, v. 2-3.

3 Обозрение Российских владений Закавказья. Т. 4, СПб, 1836, с. 290.

4 Azərbaycan tarixi, 7 cilddə, IV cild, s.49.

İrəvan Müəllimlər Seminariyasının müəllimi olmuş Şulgin sonralar qeyd edirdi ki, erməni əhalinin xəyanətindən ehtiyat edən Hüseyn xan Matasa ağanın başçılığı ilə onlardan ən etibarsız hesab etdiklərini Arazın o tayına, İrana göndərirdi[1].

Mühasirənin 4-cü günü Hüseyn xan ağ paltarda, ağ atın üstündə qaladan çıxaraq rusların üzərinə hücuma keçmək istədikdə qala müdafiəsindəki bəzi dəstə başçıları onu bu fikrindən daşındırdılar. Xana izah etdilər ki, o, ağ geyimdə daha tez nəzərə çarpar və bu səbəbdən də düşmən gülləsinə daha asan tuş gələ bilər[2].

İrəvanın alınması ilə bağlı Paskeviç I Nikolaya raportunda yazırdı: "...Mühasirə zamanı divarın altı qazılmış və artilleriya əla işləmişdir. Qurtuluş yolu tapmayanlar silahı atmış, digərləri müdafiə olunmaq istəmişlər. Lakin darvaza sındırıldıqdan sonra qala tam təslim olmuşdur"[3].

Şulginin İrəvan qalasının ruslar tərəfindən alınması barədəki məlumatına görə, mühasirənin 8-ci günü qala qarnizonunun divarlarının üzərində qalanın açarlarının ruslara nümayiş etdirilməsini qala müdafiəçilərinin qalanı təslim etmək niyyəti kimi anlayan rusların onlara tərəf göndərdiyi zabiti divarlara yaxınlaşarkən öldürülmüşdü. Bundan hiddətlənən rusların qalaya olan hücumu onun ələ keçirilməsiylə nəticələnmişdi[4].

Rusların şəhəri top atəşinə tutmasından sonra İrəvandakı dağıntılarla bağlı bir müşahidəçi yazırdı: "Mənə elə gəlir ki, mühasirə artilleriyasının dörd gündə elədiyini 4 əsrdə eləmək mümkün deyil"[5].

Yeni işğalçı rejimin həyata keçirdiyi ilk tədbirlərdən biri İrəvan qalasının içindəki məscidin kilsəyə çevrilməsi oldu. Bu barədə 20-ci piyada diviziyanın komandiri general-leytenant Krasovskinin baş komandan Paskeviçə yazdığı 16 oktyabr 1827-ci il tarixli məktubunda həmin kilsə üçün lazım olan avadanlıqların gətirilməsi barədə Gürcüstan ekzarxına müraciət olunduğu bildirilir, o baş komandandan da bununla bağlı köməkliyin göstərilməsini xahiş edilirdi[6].

Beləliklə, qeyd etmək lazımdır ki, çar Rusiyasının o zamankı Azərbaycanın ən güclü dövlətlərindən biri olan İrəvan xanlığının işğalı məqsədilə 1804-cü ildən başlanan təcavüzü 1827-ci ilin oktyabrın 1-də ciddi mühasirədən sonra qalanın alınması ilə nəticələnmişdi. İrəvan qalasının 23 illik qəhrəman müdafiəsi Azərbaycan hərb tarixinin ən şanlı səhifələrindən biri və bəlkə də birincisidir de-

---

[1] Шульгин К. Взятие Эривани. СМОМПК, т.IV. Тифлис, 1884 , с. 35.
[2] Там же, с. 36.
[3] Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828), s. 169.
[4] Шульгин К. Взятие Эривани. с. 38.
[5] Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т. III, с. 516.
[6] GMTA, f. 1087, s. 2, iş 253, v. 26-26 arxa.

sək yanılmarıq.

İrəvan qalasının şanlı müdafiəsi Azərbaycan xalqının Məhəmməd xan, Hüseynqulu xan və Həsən xan kimi qəhrəman oğullarının sərkərdəlik bacarıqlarını, diplomatiya sahəsindəki məharətlərini üzə çıxarmaqla, xalqımızın milli-mücadilə əzmini də bir daha düşmənə göstərir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatdan irəli gələn əsas müddəalar ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Azərbaycan torpaqlarında erməni vilayətinin yaradılması // Bakı-Naxçıvan-Gəncə, Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş I beynəlxalq elmi konfransın materialları, 3-8 may, 2010, s. 209-212.
2. Ermənilərin Cənubi Qafqazda erməni dövləti yaratmaq istiqamətində fəaliyyətə başlaması // "Azərbaycanın dövlətçilik tarixi" mövzusunda respublika elmi konfransının materialları, 24-25 may, Sumqayıt, 2012, s. 217-219.
3. Rus qoşunlarının İrəvan istiqamətində ikinci yürüşü // "Ermənilərin soyqırım siyasəti bəşəriyyətə qarşı cinayətdir" mövzusunda beynəlxalq elmi konfransın materialları, Sumqayıt,2015, s. 228-232.
4. İrəvan qalası istiqamətində Qacar və Rusiya orduları arasında hərbi əməliyyatlar // "Sivilizasiya (Bakı Avrasiya Universiteti. Elmi-nəzəri jurnal )", 4-cü buraxılış, 2016, s. 79-84.
5. İrəvan xanlığının Rusiya ordusu tərəfindən işğalı // "Tarix və onun problemləri" jurnalı, №3, 2016, s. 90-95.
6. Azərbaycan xalqının azadlıq mübarizəsinə dair // "Müstəqillik illərində Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni inkişafı" mövzusunda respublika elmi konfransının materialları, 13-14 oktyabr, 2016, Sumqayıt, s. 240-241.
7. Военное совещание по поводу снятия осады Иревана // Киев, журнал «Gileya», Випуск 129 (№2), 2018, с. 100-104.
8. Rusiya ordusunun İrəvan xanlığına yürüşləri // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransı, Gəncə, 2018, s. 49-52.
9. Rus qoşunlarının İrəvan xanlığına birinci yürüşü // "Tarix və onun problemləri" jurnalı, 2018.

**Л.Э.Алиева**

# ПОХОДЫ РОССИЙСКИХ ВОЙСК НА ИРЕВАНСКОЕ ХАНСТВО В НАЧАЛЕ XIX ВЕКА

## Резюме

Диссертационная работа посвящена исследованию истории оккупации Иреванского ханства Российской империей. В ней на основе первоисточников и литературы дается подробный анализ процессов, происходивших в Иреванском ханстве и вокруг него с конца XVIII века до 30-х годов XIX века.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, дается обзор источников и анализ историографии, определяются цели и задачи, методологическая основа исследования, указывается научная новизна, теоретическое и практическое значение темы.

В первой главе указано место, занимаемое Иреваном в истории Азербайджана, изучено внешнеполитическое положение Иреванского ханства в конце XVIII века, определены причины, обусловившие первый поход русских войск на Иреван, изучены ход и основные особенности обороны Иреванской крепости под предводительством иреванского Мухаммед хана. Автор делает вывод, что первый поход русских на Иреван закончился не только блестящей победой героических и отважных защитников крепости над российскими силами, а также победой полководческих и дипломатических талантов Мухаммед хана над высокомерным российским командующим Цициановым.

Во второй главе подробно исследовано второе наступление русских на Иреванское ханство. В это время Гусейнгулу хан, сменивший Мухаммед хана, усилил оборону Иреванской крепости. Указано, что отвага, продемонстрированная защитниками крепости в период осады крепости в течение двух месяцев, явилась примером героизма азербайджанского народа в борьбе против захватчиков.

В третьей главе обстоятельно изучен последний поход русских войск на Иреван, завершившийся оккупацией последнего, процесс утверждения российского правления в Иреванском регионе, проанализированы социальные и экономические изменения, произошедшие здесь после завоевания края Россией.

В заключении подводится итог проведенного исследования.

**L.E.Alieva**

# RUSSIAN ARMY MARCHES IN THE BEGINNING OF THE 19TH CENTURY TO THE İREVAN KHANATE

## SUMMARY

The dissertation is devoted to the study of the history of the conquest of the Irevan Khanate by the Russian Empire. Based on primary sources and literature, it contains a detailed analysis of the processes that took place in and around the Iravan Khanate from the end of the 18th century to the 30s of the 19th century.

The thesis consists of an introduction, three chapters, conclusion and list of references.

The introduction justifies the relevance of the topic, provides an overview of sources and analysis of historiography, identifies goals and objectives, the methodological basis of the study, indicates the scientific novelty, theoretical and practical significance of the topic.

The first chapter indicates the place occupied by Iravan in the history of Azerbaijan, studied the foreign policy position of the Iravan Khanate at the end of the 18th century, identified the reasons for the first campaign of Russian troops against Iravan, studied the course and main features of the defense of the Iravan fortress led by Iravan Mohammed Khan. The author concludes that the first Russian campaign against Irevan ended not only with the brilliant victory of the heroic and brave defenders of the fortress over the Russian forces, but also with the victory of the commander-in-chief and diplomatic talents of Mohammed Khan over the arrogant Russian commander Tsitsianov.

In the second chapter, the second offensive of the Russians against the Irevan Khanate was studied in detail. At this time, Huseyngulu Khan, who replaced Mohammed Khan, strengthened the defense of the Yerevan fortress. It is indicated that the courage demonstrated by the defenders of the fortress during the siege of the fortress for two months was an example of the heroism of the Azerbaijani people in the struggle against the invaders.

In the third chapter, we studied in detail the last campaign of Russian troops against Irevan, which ended with the occupation of the latter, the process of establishing Russian rule in the Irevan region, and analyzed the social and economic changes that took place here after Russia conquered the region.

In conclusion, summarized the results of scientific research.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.
"Turxan" NPM

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ИСТОРИИ ИМ. А.А. БАКИХАНОВА

***На правилах рукописи***

**ЛЕЙЛА ЭЛЬХАН кызы АЛИЕВА**

# ПОХОДЫ РОССИЙСКИХ ВОЙСК НА ИРЕВАНСКОЕ ХАНСТВО В НАЧАЛЕ XIX ВЕКА

**Специальность: 5503.02 – «Отечественная история»**

# А В Т О Р Е Ф Е Р А Т

диссертация на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2018**